Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1, 2019, **s. 61-67**
Азербайджанский Государственный Педагогический Университет Актуальные проблемы музыкальной науки, культуры и образования №1, 2019, **c. 61-67**
Azerbaijan State Pedagogical University Actual problems of the science, culture and education of music №1, 2019, **pp. 61-67**

UOT 929:78

M.A.Rzayeva
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Ü.Hacibəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi, 98
E-mail: xadicar@mail.ru

ELMİN TÜKƏNMƏZ AXININDA

***Açar sözlər**: alim-musiqişünas, pedaqoq, rəhbər, musiqimizin təbliği, səmimi insan*

Məqalə musiqişünas,sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmayılzadənin yaradıcılığına həsr olunmuşdur. Müəllif tərəfindən N.İsmayılzadənin yaradıcı şəxsiyyət kimi portreti səciyyələndirilmişdir. Onun elmi,pedaqoji,musiqimizin təbliğatı sahəsindəki xidmətləri işıqlandırılmışdır. N.İsmayılzadənin elmi axtarışlarının təsnifatı verilmişdir.

М.А.Рзаева

В ПОТОКЕ НЕИСЧЕРПАЕМОЙ НАУКИ

***Ключевые слова**: ученый-музыковед, педагог, руководитель, пропаганда национальной и классической музыки, искренний человек*

Статья посвящена кандидату искусствоведения, доценту Нуриде Исмаил-заде. Портрет творческой личности Н.Исмаил-заде сопровождается информацией о ее научной, педагогической деятельности. Автор рассматривает научно-исследовательские, а также музыкально-пропагандистскую деятельность Н.Исмаил-заде. Дана классификация научных исследований Н.Исмаил-заде.

M.A.Rzayeva

IN THE FLOW OF INEXHAUSTIBLE SCIENCE

Key words: musicologist, teacher, leader, promotion of national and classical music, sincere person.

The article is devoted to the candidate of art history, associate Professor Nurida Ismail-zadeh. Portrait of creative personality N.Ismail-zadeh is accompanied by information about her scientific and pedagogical activities. The author examines the research, as well as musical and propaganda activities of N.Ismail-zadeh. Classification of scientific research N.Ismail-zadeh.

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz,
Hər uca zirvədən, bilin ki, fəqət.
Alimin rütbəsi ucadır əlbət!

NİZAMİ GƏNCƏVİ

Azərbaycan musiqişünaslıq elmi uzun illər ərzində yüksəliş yolu keçərək, böyük nailiyyətlər qazanmış, zirvələrə ucalmışdır. Müasir Azərbaycan musiqişünaslıq elmində öz fərdi üslubu və yaradıcılıq təmayülləri ilə seçilən alim – musiqişünaslar vardır ki, elmi potensialları, elmi araşdırmaları və yenilikləri imkan verir ki, onların özləri haqqında tədqiqatlar aparılsın və geniş ictimaiyyətə çatdırılsın. İlk dəfə olaraq elmi fəaliyyəti tədqiq olunan, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının"Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi:orqanologiya və akustika" elmi laboratoriyasının müdiri, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nuridə Cəfər qızı İsmayılzadənın yaradıcılıq axtarışları müasir müsiqişünaslıq elmində əvəzedilməz yer tutur.

Nuridə xanımla ilk tanışlığım Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi-tədqiqat və yaradıcılıq işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru, professor G.A.Abdullazadənin iş otağında olmuşdur. İlk görünüşdən özünə məxsus olan kübarlığı, səmimiliyi və insanlara qarşı rəftarında gülərüzlüyü ilə, yalnız mənim yox laboratoriyanın bütün gənc alimlərinin diqqətini çəkmişdir. Nuridə xanım tez bir zamanda müdrikliyi və əsil Azərbaycan xanımına layiq həssaslığı, peşəkarlığı, elmi fəaliyyəti, cəsarət və qətiyyətliliyi ilə kollektivin sevgisini və hörmətini qazanmışdır. Mən həmişə Nuridə xanımın özünü təqdim etmə bacarığına, əsil ziyalıya məxsus nitq qabiliyyətinə valeh olmuşam. O, sanki insanları öz nitqi ilə ovsunlamağı bacarırdı. Sonralar bildim ki, bu xanımlıq, alicanablıq və kübarlıq Nuridə xanımda irsidir.

Beləki Nuridə İsmayıl-zadə XX əsr Azərbaycanın tanınmış milyonçusu və xeyriyyəçisi, neftxuda İsa Bəy Hacınskinin nəticəsidir *(İ.Hacınski 1860-cı ildə Bakıda anadan olub.Bakının digər tanınmış milyonçularından fərqli olaraq adlı-sanlı zadəgan nəslinin nümayəndəsi olan İsa bəy atasından miras qalmış bir neçə mülk və torpaq sahələrində neft kompaniyasını yaradır.Onun və qardaşı Kazım bəyin Bibiheybətdə, Xəzər dənizindəki Çələkən yarımadasında neft mədənləri, Qara şəhərdə kerosin zavodu, Bakı şəhərinin bir neçə yerində - 28 may küçəsi 12-də,Bül-Bül prospekti 63-də,Fizuli küçəsi 39-da,və bunlardan ən əzəmətlisi "Hacınskinin evi" kimi tanınan Qız qalasının yanında yerləşən binadır).*

Nuridə xanım İsmayılzadə Bakı şəhərində, qeyd etdiyimiz kimi dərin köklərə məxsus kübar ziyalı ailəsində anadan olmuşdur. Atası İsmayılzadə

Cəfər İsa oğlu 1969-cu ildə H.Əliyev tərəfindən yaradılmış Nazirlər Soveti yanında Başqaz idarəsinin rəisi idi. Anası Əliyeva Tamuris Nağı qızı, pedaqoji elmlər doktoru, professor, Azərbaycan Pedaqoji İnstitutunda rus dili kafedrasında uzun illər müdir vəzifəsində çalişmişdır. Ziyalı ailəsində böyüyüb-başa çatan Nuridə İsmayıl-zadə daima damarlarında axan qanın kübarlığını hiss etmiş və həyatı boyu soykökünün layiqli varisi olmaq məsuliyyətini öz çiyinlərində daşımışdır.

1966-1977-ci illərdə dövrü üçün musiqi məktəbləri içərisində nüfuzu ilə seçilən Bülbül adına orta ixtisas musiqi məktəbində Namiq Sultanovun sinfində, daha sonra Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına fortepiano ixtisası üzrə dövrünün ən nüfuzlu pedaqoqlarından olan professor Rafik Quliyevin , müasir musiqidən Firəngiz Əlizadənin, musiqi tarixindən İ.Anezqauz və L.Karaqiçevanın sinfində təhsil almışdır. Nuridə xanım uşaqlıq illərini belə xatırlayır: " *Bülbül adına musiqi məktəbi əvvəllər indiki Bakı Musiqi Akademiyasının birinci mərtəbəsində yerləşirdi. Üst mərtəbələrində isə artıq tələbə adına layiq görülmüş gənclər təhsil alırdılar. Yuxarı qalxmağa bizə icazə verilməsə də, gizli şəkildə qalxıb və sanki özümüzü möcuzələr dünyasında hiss edirdik. Nə yaxşıki bunu edirdim, həyatımda heç unutmayacağım anları yaşayırdım. Mən musiqimizin afsanəvi şəxsiyyətlərini izləyə bilirdim və bu gün belə fəxr edə bilərəm ki, F.Əmirovu,Q.Qarayevi, Niyazi,Müslüm Maqomayevi, Natavan Şeyxovanı, L.İmanovu,R.Behbutovu, yaxından görə bilmişəm. O illərin xatirələri mənə indi də stimul verir, yazıb-yaratmaq həvəsini qanadlandırır.*

Artıq tələbə ikən professor Rafik Quliyevin sinfində təhsil almaq özü belə xoşbəxtlik idi.Yadımdadir ki, Rafik müəllim çox nadir hallarda tələbələrini tərifləyər, "əla" qiymətləndirərdi. Olduqca ciddi, tələbkar və eyni zamanda ədələtli pedaqoq idi. Mən fəxrlə deyə bilərəm ki, müəllimim mənim fortepianoda ifamı "əla" qiymətləndirirdi . Tələbəlik illərində mən olduqca fəal və çalışqan idim. Sözün düzünü desəm, bunu bizdən müəllimlərimiz və seçdiyimiz sənətə sevgi və hörmətimiz tələb edirdi. Konservatoriyanı fərqlənmə diplomu ilə bitirməyimdə öz müəllimlərimə borcluyam"

Qeyd edək ki, dəyərli tələbəlik illəri, Nuridə xanımın gələcək elmi işlərinin təməl daşını qoymuşdur. 2001-ci ildən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında, professor G. Abdul- lazədənin rəhbərliyi altında elmi tədqiqat laboratoriyasında elmi yaradıcılığına start verən Nuridə İsmayıl-zadə geniş erudisiya və dərin peşəkarlığa məxsus olan müsiqişünas kimi özünü doğrulda bilmişdir. Onun Beynəlxalq simpoziumlarda, elmi-nəzəri konfranslarda uğurla çıxış etməsi Azərbaycan musiqi mədəniyyətini təmsil etməklə yanaşı, musiqişünaslıq elminə bəxş etdiyi qiymətli tövhədir.

Nuridə xanım İsmayıl-zadə Azərbaycan musiqişünaslığı üçün dəyərli sayılan bir sıra dərs vəsaitlərinin, monoqrafiyaların müəllifidir: *" Из истории*

азербайджанской музыки.Традиции меценатства и просветительства" dərs vəsaiti, "Rus musiqi tarixi" dərs vəsaiti, "Müasirlərimiz:Həsən Ağa Adıgözəlzadə" monoqrafiya, "Азербайджано-Российские музыкальные связи в XX веке" monoqrafiya, "На вершине науки Гюльназ Абдуллазаде" monoqrafiya, "Böyük maarifçi – Əfrasiyab Bədəlbəyli" dərs vəsaiti.

2005-ci ildə namizədlik dissertasıyasını müvəffəqiyyətlə müdafiə etdikdən sonra 2007-ci ildə*" Из истории азербайджанской музыки.Традиции меценатства и просветительства"*adlı ilk dərs vəsaitini dərc etdirir. Qeyd edək ki, dərs vəsaiti uzun illər aparılmış elmi axtarışların və tədqiqatın bəhrəsi olaraq yalnız arxiv materiallarına əsaslanaraq ərsəyə gəlmişdir. Arxiv materialları ilə işləmək bacarığını və elmi peşəkarlığını yüksək səviyyədə sübüt edən müəllif sonda mükəmməl dərs vəsaiti təqdim etmişdir. Dərs vəsaitində təqdim olunan faktlar Azərbaycan Respublikasında fəaliyyət göstərən Rusiya Federasiyasının səfirliyini maraqlandırmış və Azərbaycan dövlət diaspora komitəsi tərəfindən dərs vəsaiti yenidən dərc edilmiş və hal – hazırda dünya üzrə bütün Azərbaycan diasporalarında mövcuddur. Hesab edirik ki, bu fakt nəyinki, Nuridə xanımın uğurudur, eyni zamanda milli - mənəvi, tarixi dəyərlərimizin qorunması və xarici ölkələrdə təbliğində müstəsna əhəmiyyətə malikdir.

N.İsmayılzadə bir musiqişünas – alim olmaqla yanaşı eyni zamanda da ciddi pedaqoq kimi daima axtarışdadir. Onun pedaqoji fəaliyyətində əsaslı uğurlarından biri də, gələcək nəslə ərmağan etdiyi 2015 –ci ildə nəşr olunan *"Rus musiqi tarixi"* dərs vəsaitidir. Məlum olduğu kimi bir çox dərs vasaitləri Sovetlər dönəmində dərc olunduğundan, rus dilində tədris olunurdular. Bu gün biz müstəqil dövlətin vətəndaşlarıyıq və dövlət dilimiz Azərbaycan dilinə hörmətlə yanaşırıq. O da məlumdur ki, bu gün belə, bir sira dərsliklər rus dilindədi və azərbaycan dilində təhsil alan tələbələrə də tədris olunur . Nuridə xanım "Musiqi tarixi " kafedrasında çalışdığı dövrdə azərbaycan bölməsində tələbələrin bu baxımdan əziyyət kəçdiklərini hiss edir və əsil ziyalı, pedaqoq kimi rus musiqi tarixi dərsliyinin azərbaycan dilində hazırlanmasına başlayır. Hər bir iş kimi bu təşəbbüs də Nuridə xanımdan ciddi peşəkarlıq və məsuliyyət tələb edirdi. Lakin qarşısıma qoyduğu hər bir məqsədin ardınca inamla addımlayan Nuridə İsmayılzadə, Azərbaycan dilində *"Rus musiqi tarixi"* dərs vəsaitini tez bir zamanda dərc elətdirir. Dərs vəsaitində: İ.F.Stravinski, A.K. Qlazunov, S.İ.Taneev, A.K.Lyadov, A.S. Arenskiy, S.S.Prokofyev, R.K. Şedrin, Q.V. Sviridov kimi görkəmli rus bəstəkarları, onların həyat və yaradıcılıqları haqqında ətraflı məlumatlar verilmişdir. Azərbaycan dilində dərs vəsaitinin dərc edilməsi Nuridə xanımın alim-musiqişünas kimi, eyni zamanda da, fədakar pedaqoq kimi uğurunun bəhrəsi idi.

2015-ci ildə daima axtarışda olan tədqiqatçı-alim Nuridə İsmayılzadə daha bir uğuruna imza atır. *"Müasirlərimiz:Həsən Ağa Adıgözəlzadə"* adlı

monoqrafiyası, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həsən Ağa Adıgözəlzadənin həyat və yaradıcılığından bəhs edir.Tarixi faktları araşdırmağı sevən N.İsmayıl-zadə bu səfər də H.A.Adıgözəlzadə ilə bağlı araşdırmalarında məlum edir ki, Həsən Ağa müəllim "Qarabağnamə" (*"Qarabağnamə"əsəri keçən əsirlərdə Qarabağda baş vermiş bütün hadisələri özündə ehtiva edir və bu əsasla da ən ilkin qədim tarixi məmbədir*) əsərinin müəllifi Mirzə Adıgözəl bəyin nəticəsidir. Qaləmə aldığı hər bir məlumatı faktlarla əsaslandıran N.İsmayıl-zadə, bəstəkarın 70-90-cı illərdəki fəaliyyətini araşdıraraq geniş ictimaiyyətə təqdim etmişdir.

Niridə İsmayıl-zadənin ən sanballı və irihəcmli kitablarından biri də*"На вершине науки Гюльназ Абдуллазаде"* adlı monoqrafiyasıdır . Monoqrafiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi tədqiqat və yaradıcılıq işləri üzrə prorektoru, görkəmli alim, bəstəkar, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Gülnaz Abutalıb qızı Abdullazadənin həyat və yaradıcılığına həsr edilmişdir. Gülnaz xanım Abdullazadə, Nuridə xanımın elmi rəhbəri olmuşdur. Nuridə xanımın öz rəhbəri haqqında yazdığı sözləri xatirlamaq istərdim:" Mən bu gözəl və müdrik şəxsiyyətə minnətdaram. Mənim özümün belə hiss etməyəcəyim keyfiyyətləri məndə kəşv edən, məni istiqamətləndirən, inkişaf etdirən, musiqişünas alim kimi tanınmağımda yardımçı olan, mənim üçün "yüksək zirvə" mənası daşıyan rəhbərimə daima borcluyam".

Bəli bir alim öz rəhbərinə borcunu necə qaytara bilər? Nuridə xanım İsmayılzadə rəhbərini bir daha öz yazılarında əbədiləşdirdi. *"На вершине науки Гюльназ Абдуллазаде"* adlı monoqrafiyası müəllifin fundamental araşdırmalar apararaq ərsəyə gətirdiyi məhsuludur. Monoqrafiya G.A.Abdullazadənin 70 illik yubileyinə həsr edilmişdir. Azərbaycan Bəstəkarlar İttifaqında monoqrafiyanın təntənəli təqdimatı baş tutmuşdur. Tdbirdə olduqca mötəbər elm xadimləri momoqrafiyanı yüksək qiymətləndirərək fikirlərini bildirmişlər.

Tükənməz elmi potensiala malik Nuride İsmayılzadə əldə etdiyi nailiyyətlər, yekunlaşdırdığı araşdırmalarla kifayətlənmir, hər zaman axtarışlarını davam etdirir. Onun, Azərbaycanın görkəmli bəstəkarı, ilk milli baletin yaradıcısı, ictimai xadim, Azərbaycan xalq artisti, böyük maarifçi Əfrasiyab Bədəl oğlu Bədəlbəylinin 110 illik yubileyi ilə əlaqədar nəşr etdirdiyi *"Böyük maarifçi – Əfrasiyab Bədəlbəyli"* adlı dərs vəsaiti müəllifin digər elmi axtarışlarından əsaslı surətdə fərqlənir. Bəli, arxiv materialları ilə işləmək bacarığı, ona yardımçı olmuşdur. Lakin*"Böyük maarifçi – Əfrasiyab Bədəlbəyli"* adlı dərs vəsaiti, bəstəkarın məhz uzun illər radio və televiziyada Azərbaycan klassik musiqisi və folkloru haqqında apardığı məzmunlu və maraqlı verlişlərini işıqlandıraraq onlara ikinci həyat bəxş etmişdir. Dərs vəsaiti praktiki vəsait kimi əvəzolunmaz məmbədir. Onu da vurğulayaq ki, dərs

vəsaitinin təqdimatı Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ və Azərbaycanın Xalq Artisti, professor Fərhad Şəmsi oğlu Bədəlbəylinin 70 illik yubiley tədbirində təntənəli şəkildə baş tutmuşdur. Fərhad müəllim tədbirdə əmisi Əfrasiyab Bədəlbəyliyə həsr olunmuş yeni dərs vəsaitini yüksək qiymətləndirərək, Nuridə İsmayıl-zadəni daima axtarışda olan bir alim kimi, elmi fəaliyyətlərini və əldə etdiyi naliyyətləri xüsusi olaraq vurğulamışdır.

Qeyd olunan elmi tədqiqatların hər biri böyük zəhnət, sənətinə olan sonsuz fədakarlıq və sevgi bahasına ərsəyə gəlmişlər. Nuridə xanım ziyalı olmaqla yanaşı, daima vətəndaşlıq prinsiplərindən çıxış edərək öz mövqeyini bildirmişdir.

" Kaspi" qəzetində "Когда трава растет от корней своих" adlı müsahibəsində, müxbirin « Çox maraqlıdır! yeni bir monoqrafiya və ya dərs vəsaiti üzərində işləməyə başlayarkən, buna nə vəsilə olur?... konkret bir hadisə?.. emosional hal ?... yaradıcılıq impulsu?..." sualına Niridə İsmayıl-zadə cavab vermişdir: " Bəli, siz haqlısınız. Hər bir qələmə alıb, dərc etdirdiyim elmi axtarışlarımin bəhrəsi olan kitabların öz tarixçəsi var. Heç bir kitabım anidən sadəcə dərc olunmaq xatirinə yazılmayıb . Hər bir kitabımda məni ruhlandıran, könlümə toxuna biləcək və eyni zamanda elmi prinsiplərimlə üst-üstə düşəcək amillər öz əksini tapmışdır."

Daha sonra müxbir qeyd edir ki, " Sizin ulu babanız İsa bəy Hacınski Bakı şəhərinə möhtəşəm binalar irs olaraq bağışlamışdır, siz isə - xalqımıza intellektual xəzinələr bəxş edirsiz. Afərin!

- Bəli! Mən bu cəhətdən təmamilə arxayınam. Mənim bütün işlərim maarifçilik məqsədi daşıyır və arzum budur ki, uzun illər tələbələr, xalqımın gəncləri bu kitablardan bəhrələnsinlər.

Hal-hazırda Nuridə İsmayıl-zadə, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəhbərliyi, bilavasitə rektor, professor Fərhad Bədəlbəylinin və elmi işlər üzrə prorektor, professor G.Abdullazadının etimadı və Elmi Şuranın qərarina əsasən "Şifahi ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi:orqanologiya və akustika" elmi tədqiqat laboratoriyasında müdir vəzifəsində çalışır. Nuridə xanım laboratoriyaya rəhbərlik etdiyi ilk gündən etibarən, uzun illər G.Abdullazadənin təməlini qoyduğu iş prinsipini davam etdirərək, ənənələrə dayaqlanaraq, zamanın tələbinə uyğun olaraq inkişafa , görülən işlərin daha da ictimailaşməsinə, yeni elmi tərəqqi və istiqamətlərə can atır. Nuridə xanımın ilk növbədə özünə, daha sonra elmi əməkdaşlara qarşı tələbkarlığı ümumi işin inkişafına dəlalət edir.

Elmi əməkdaşların yaxşı yadındadır ki, 2018-ci ilin may ayında laboratoriya çox çətin günlərini yaşayırdı. Elmi laboratoriyaların Respublika üzrə demək olar ki, bütün ali ocaqlarda bağlanması bütün əməkdaşların iş fəaliyyətini iflic halına salmışdı. Çoxlarımız ruh düşkünlüyünə qapanmışdıq. Yalnız Nuridə xanım rəhbərliyə arxalanaraq bir sıra koordinal addımlar atdı və

bütün əməkdaşları səfərbər edərək inamla addımlamağa sövq etdi. Çətin anlarda Nuridə xanım əsl rəhbər kimi, peşəkarlığını sübüt etdirdi.

Keçən il 25 illik yubileyini təntənəli şəkildə qeyd edən elmi laboratoriya, hal-hazırda ikinci, yeni həyatını yaşayır. Nuridə xanım İsmayılzadənin uzaqgörənliyi, professionallığı və yüksək təşkilatçılıq bacarığı danılmazdır və bu xüsusiyyətlər bir rəhbərə lazım olan ən əsas keyfiyyətlərdir. Nuridə xanımın, əməkdaşların elmi bazasından istifafə edərək musiqimizin təbliği və inkişafına verdiyi tövhə , bir sıra lahiyələr nəticəsində laboratoriyanın işinin geniş miqyaslı, fundamental araşdırmalar səviyyəsinə çatdırmaq cəhdidir. Elmi laboratoriya onun rəhbərləyi altında, bu qısa dövrdə bir sıra yadda qalan nailiyyətlərə imza atmışdır. Laboratoriyamız, bu gün, Azərbaycan Respublikası Prezidenti yanında "Bilik fondu", Azərbaycan Respublikası Əqli Mülkiyyət Aqentliyi ilə bağlanmış müqavilələr nəticəsində, möhtəşəm proyektlərlə bağlı aparılan tədqiqatlar, Bakıda, Qəbələdə, Xaçmazda, Qubada, Şamaxıda keçirilmiş uğurlu seminar və konsertlər, musiqimizin təbliği ilə yanaşı maarifçilik missiyasını daşıyaraq sözün əsl mənasında iri həcmli elmi mərkəzin funksiyasını yerinə yetirir. Nuridə xanım daim rəhbərliyin, elmi əməkdaşların qayğı və dəstəyini hiss edərək , gələcək planlar üzərində inamla işləyir.

Nuridə xanım İsmayılzadəyə elmin tükənməz axınında daima birincilər sırasında olmağı arzu edirik.

ƏDƏBİYYAT

1. Исмаил-заде Н.Д. " Из истории азербайджанской музыки.Традиции меценатства и просветительства" dərs vəsaiti, Nurlan, Bakı-2008,
2. İsmayıl-zadə N.C."Rus musiqi tarixi" dərs vəsaiti, Mütərcim" Bakı 2015,"
3. İsmayıl-zadə N.C. "Müasirlərimimz:Həsən Ağa Adıgözəlzadə" monoqrafiya,Bakı,"Elm və təhsil", 2015,112 səh.
4. Исмаил-заде Н.Д, "На вершине науки Гюльназ Абдуллазаде" монография,Баку,»Элм и Тахсил»,2017,271 с.
5. İsmayıl-zadə N.C. "Böyük maarifçi – Əfrasiyab Bədəlbəyli" dərs vəsaiti, Bakı, "Elm və Təhsil", 2017,187 səh.
6. " Когда трава растет от корней своих", «Каспи»,- 02.03.2018

Məqalənin redaksiyaya daxil olma tarixi: 10.05.2019
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.05.2019
Məqalənin çapa qəbul olunma tarixi: 12.07.2019
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.